Xalq qəzeti 2020.- 27 sentyabr.- S.3.

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 350** **Bakı şəhəri, 23 sentyabr 2020-ci il**

**Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının yaradılması, "Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının Əsasnaməsi"nin və "Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının tərkibi"nin təsdiq edilməsi barədə**

"Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 3 may tarixli 885 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 oktyabr tarixli 3303 nömrəli Sərəncamının 1.5-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurası yaradılsın.

**2.** "Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının Əsasnaməsi" təsdiq edilsin (1 nömrəli əlavə).

**3.** "Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının tərkibi" təsdiq edilsin (2 nömrəli əlavə).

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş Naziri***